# Qurban bayramı

Dünya müsəlmanlarının müqəddəs Qurban bayramı yaxınlaşır. 15-16 oktyabr tarixdə təmtəraqla qeyd edəcəyimiz Qurban bayramının meydana gəlməsinin tarixi uzaq keçmişlə bağlıdır və bu günümüzə çox sınaqlardan gəlib çatıb. Bizim ölkəmizdə halallığa, paklığa səsləyən Qurban bayramı dövlət səviyyəsində bayram edilir. Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli «Azərbaycan Respublikasının bayramları haqqında» Qanun bu sahədə mühüm əhəmiyyət kəsb edir.

Qurban bayramının çox maraqlı tarixi və şərtləri mövcuddur. İbrahim peyğəmbər Allaha qəlbən yaxın və sadiq peyğəmbər idi. O, Allaha sadiq olduğunu sübut etmək üçün oğlu İsmayılı Allah yolunda qurban kəsməyə hazır idi. Uca Allah isə bunu öz elçisinə rəva bilmədi. Qurbanlıq üçün ona bir qoç göndərdi. Buna görə də Qurban bayramında kəsilən qurbana «İsmayıl qurbanı»da deyirlər.

İbrahimin qoca yaşında Allah ona bir oğlan uşağı (İsmayılı) nəsib etmişdi. Çox sevdiyi balasını Allah yolunda verməyə hazır olması peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisə onu göstərir ki, insanlar Allahı sonsuz inamla sevməli və öz sevgilərində bu çür səmimi olmalıdırlar. İnsan Allahın yaratdığı ən şərəfli və ən üstün məxluqdur. Allahın özünün yaratdığını özü yolunda qurban kəsilməsini qəbul etmir.

İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacibdir. Qurbanlıq kimi seçilən heyvan-qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa daha yaxşıdır. İsmayıl Qurbanında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi İslamda məsləhət görülmür. Bu bayramın əsas mahiyyəti Allah yolunda kəsilmiş qurbanlıq heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək, sevincinə şərik olmaqdır. Beləliklə, bu bayramın və ayinin də əsasında orucluqda olduğu kimi, xeyirxahlıq, paklıq və Allaha inam və sevgi durur.

Bəzən bir neçə adam bir heyvan alıb onu öz aralarında bölüşməklə, yaxud gedib bazardan ət alıb gətirməklə öz qurbanını kəsmiş hesab edirlər. Lakin İslam dininə görə bunlar qurbanlıq hesab olunmur. Əlbəttə, bir neçə nəfər yığışıb bir dananı qurban kəsə bilərlər, bu şərtlə ki, hər bir şəxsə düşmüş ət payını ən azı üç hissəyə bölmək mümkün olsun. Bu hissələrdən biri onların öz ailəsinə sərf olunmalı, qalan hissələri isə fəqir-füqərəya paylanmalıdır.

Qurban bayramının ən gözəl xüsusiyyətlərindən biri odur ki, burada din, məzhəb ayrı seçkiliyinə yol verilmir. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin, adi günlərdə yeyə bilmədiyi qurbanlıq ətindən dadsın. Qurbanlıq o deməkdir ki, Allahın xoşuna gələcək bir əməl icra edilir.

Qurbanlığın şərtlərindən biri də budur ki, qurban kəsmək yalnız buna imkan olan varlı adamların boynunda haqdır. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: —varlılar Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə dünya nemətlərindən əldə etliklərinə və başqalarından gördükləri mərhəmət və qayğıya görə.

**Hacı Ağahüseyn TAHİROV, ilahiyyatçı.**

## ”Xəmsə“ Milli İntellektual Oyunu üzrə rayon seçim mərhələsi

“Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramının müvafiq bəndlərinin icrasının təmin edilməsi məqsədi ilə Qəbələ rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 28 sentyabr 2013-cü il tarixdə Qəbələ rayon Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin akt zalında “Xəmsə” Milli İntellektual Oyunu üzrə yeniyetmələr arasında III Azərbaycan Çempionatının Qəbələ rayon mərhələsi keçirilmişdir.



Rayon mərhələsinin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək iştirakçıları salamlamış və cənab Prezident İlham Əliyevin gənc nəslə xüsusi diqqət yetirdiyindən, onlara hər bir sahədə göstərilən qayğıdan danışmış, tədbirin məqsəd və vəzifələri haqqında məlumat vermişdir.

“Xəmsə” Milli İntellektual Oyununun keçirilməsində əsas məqsədin yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, Azərbaycanın zəngin milli mədəniyyətinin və tarixinin təbliği, eləcə də yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarət olduğu bildirilmişdir.

Rayon mərhələsində 14-17 yaş arasında 120-dək yeniyetmə komanda şəklində öz bilik və bacarıqlarını sınamışlar.

Yarışın yekununda “İsra” hazırlıq kurslarının komandası I, Vəndam qəsəbə 3 saylı tam orta məktəbin komandası II və Qəbələ şəhər 2 saylı tam orta məktəbin komandası isə III yerə çıxmışdır. Qalib komandalara Gənclər və İdman İdarəsinin diplomları təqdim edilmişdir. Hər üç komanda Zaqatala rayonunda keçiriləcək zona mərhələsinə vəsiqə qazanmışlar.

**Məhəmmədəli SƏFƏRÇİNOV, Gənclər və İdman İdarəsinin baş məsləhətçisi.**

## İdmançımızın uğurları

“Firi-Faytinq” idman növü Qəbələ rayonunda yenicə fəaliyyətə başlasa da inkişaf etməkdədir. İdmanın bu növü ilə məşğul olan rayon idmançıları daim Respublika yarışlarında və çempionatlarda, eləcə də beynəlxalq turnirlərdə fəxri kürsünün yüksək pilləsində yer tutmuşlar. Belə idmançılardan biri də Elçin Cəbrayılovdur.



Elçin Cəbrayılov Çuxur Qəbələ kəndində anadan olmuş və orta məktəbdə oxuduğu vaxtlardan idmanla məşğul olmağa başlamışdır.

Daha sonra Olimpiya İdman Kompleksində peşəkar məşqlərə başlayan Elçinin idman həyatındakı nailliyyətləri Respublika yarışlarına qatılmaqla başlamış və uğurlu nəticələr əldə etməsinə səbəb olmuşdur. O, Azərbaycan Döyüş Federasiyaları Assosiasiyasının zona kubokunun qalibi olmuş, Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş Fri-Faytinq üzrə Açıq Festivalda II yerə layiq görülmüşdür.

Bu yaxınlarda, sentyabrın sonlarında Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində keçirilən Dünya Firi-Faytinq Təşkilatının Beynəlxalq Çempionatında idmançımız 64 kiloqram çəki dərəcəsində II yeri tutaraq çoxsaylı mükafatları sırasına birini də əlavə etmişdir. Gərgin keçən idman döyüşlərində ölkəmizin idman şərəfini layiqincə qoruyan Elçin rayona medal və diplomla qayıtmışdır.

Gənc idmançımızı təbrik edir, bundan sonrakı idman həyatında ona uğurlar arzulayırıq.

**Elçin OSMANOV, Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**

## Pərakəndə əmtəə dövriyyəsinin həcmi artır

Cari ilin 8 ayı ərzində ölkədə pərakəndə əmtəə dövriyyəsinin həcmi 2012-ci ilin müvafiq dövrünə görə 9,4 faiz artaraq 12,2 milyard manat olmuşdur. Əmtələrin 12,2 faizi hüquqi, 87,8 faizi fiziki şəxslərin pərakəndə ticarət subyektlərində satılıb. Dövriyyə üzrə real artımın 86,9 faizi hüquqi və fiziki şəxslərə məxsus ticarət subyektlərinin, 13,1 faizi yarmarkada və bazarların fəaliyyəti sayəsində yaranıb. Hər bir istehlakçı isə orta hesabla 164 manatlıq və ya 2012-ci ilin eyni dövrü ilə müqayisədə 14,7 manatlıq çox əmtəə alıb.